# Bakı səhnəsində özbək baleti təqdim edildi

**Bakıda qastrol səfərində olan Əlişir Nəvai adına Özbəkistan Böyük Teatrının truppası dünən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaçılara özbək xalqının görkəmli bəstəkarı Ənvər Erqaşevin "Humo" adlı baletini təqdim etdi.**



Özbəkistan Böyük Teatrının aparıcı solistlərinin, Xalq artistlərinin, vokalçılarının və balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatlarının səhnədəki əsrarəngiz çıxışları izləyiciləri valeh edir, tamaşaya rəng qatırdı.

Qastrol qrupuna daxil olan simfonik orkestrin səsləndirdiyi musiqilər yüksək zövqlə seçilmişdi. Solistlərin qeyri-adi çıxışları tamaşaçıların zövqünü oxşayırdı. Xor artistlərinin müşayiəti isə onların yüksək peşəkarlığından xəbər verirdi.

Beşpərdəli tamaşanın alqışlar altında keçməsi balet truppasının ürəkləri fəth etməsini göstərirdi.

Xatırladaq ki, "Humo" baletinin premyerası 2005-ci ildə Əlişir Nəvai adına Dövlət Akademik Böyük Teatrının səhnəsində baş tutub. 2007-ci ildə tamaşaya yazdığı musiqiyə görə müəllif birinci dərəcəli Dövlət Mükafatı laureatı adına layiq görülüb.

Tamaşadan sonra "Mədəniyyət" jurnalının baş redaktoru Zöhrə Əliyeva baletin yüksək səviyyədə təşkil edildiyini və Azərbaycanla Özbəkistan arasında hələ ötən əsrin 60-cı illərindən ədəbi-mədəni əlaqələrin qurulduğunu söylədi. Bildirdi ki, ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrin bu səviyyədə inkişafı gələcəyə ümidlər verir. Tamaşanın musiqi tərtibatı yüksək səviyyədə idi. Rəqqas və balerinalar tələbkar Bakı tamaşaçılarının zövqünü oxşayırdılar.

Bu gün isə truppa italyan bəstəkarı Cüzeppe Verdinin "Riqoletto" operasını tamaşaçılara təqdim edəcək.

**Elçin ABBASOV, "Xalq qəzeti"**

Xalq qəzeti.-2022.- 17 noyabr.- S.16.